# Daim axtarışda

*Ramin Məmmədov 1957-ci il aprelin 18-də təbiətin kamil möcüzəsi olan Qəbələnin Bum kəndində anadan olub. 1980-ci ilin mart ayından 1992-ci ilin mart ayınadək Rusiyanın Tümen vilayətinin Nijnevartovsk şəhər dəmiryol nəqliyyatı milisində milis nəfəri, bölmə komandiri, əməliyyat növbətçisi, SƏDM əməliyyyat müvəkkili vəzifələrində fəaliyyət göstərib, həmin illərdə Nijni Tagil xüsusi milis məktəbində hüquq təhsili alıb. Nijnevartovskda «Mestnoe vremya» qəzeti nəzdində ikiillik jurnalist sənətkarlığı kursunda, Tümendə vilayət partiya komitəsi yanında ikiillik siyasi universitetdə «ideoloji kadrlar» fakültəsində təhsilini artırıb.*

1988-ci ildə Dağlıq Qarabağ münaqişəsi başlayanda Orta Ural nəqliyyat daxili işlər idarəsinin rəhbərliyinə müraciət edərək Bakıya bir aylıq ezamiyyətə göndərilib, aprel-may aylarında Bakı şəhər dəmiryol nəqliyyatı milis idarəsi tərkibində Bakı-Qafan, Qafan-Bakı, Bakı-İrəvan, İrəvan-Bakı marşrutları üzrə sərnişin qatarlarına nəzarət edib. 1992-ci ildə ölkəmizin ağır günlərində xidmətini doğma Vətənə dəyişərək torpaqlarımızın bütövlüyü uğrunda gedən Qarabağ döyüşlərində iştirak edib, xidməti yüksək qiymətləndirilib. 2004-cü ildə mayor rütbəsində öz xahişi ilə təqaüdə çıxıb. Özünün dediyi kimi, o gündən «qələmini-aləmini» - müstəqil jurnalistlik fəaliyyətini vətənpərvərlik, beynəlmiləlçilik, Azərbaycan həqiqətlərinin mətbuat vasitəsilə təbliği üzrə daha da genişləndirərək, yüzlərlə yazının və 37 adda kitabın müəllifinə çevrilib.




Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü Ramin Məmmədov belə cəfakeş, vətənpərvər, yurdsevər publisistlərimizdəndir. Əsl sənəti polis əməliyyatçısı olsa da, həyatını daim yaxşıların, öz xalqına sədaqətlə xidmət etmiş, lakin zaman-zaman unudularaq yaddaşlardan silinmiş insanların sorağına həsr edib. Bu yol çətin yol olsa da, Ramin müəllim bu yoldan çəkinməmiş, bütün çətinliklərin öhdəsindən gələrək, repressiyalara məruz qalmış, xaricə mühacirət etmiş, elm, ədəbiyyat, mətbuat, təhsil sahəsində ömrünü şam kimi əritmiş çoxsaylı soydaşımızın adlarını saralmış arxiv qovluqlarından, uzaq ölkələrin ucqar guşələrindən çıxarmış, tarixləşdirmiş, əbədiləşdirmişdir. Həftələrlə, aylarla qatarla yol qət edərək orada yaşayan soydaşlarımız, onların Rusiya Federasiyasının iqtisadiyyatına, elm və mədəniyyətinə verdiyi töhfələri, Böyük Vətən müharibəsində igidliklər göstərmiş Azərbaycan xalqının mərd oğulları haqqında topladığı materialları cild-cild kitablara köçürmüş, diaspor publisistikamızın zəngin irsini yaratmışdır.Bu görkəmli insanların bəziləri haqqında respublika ictimaiyyətinin məlumatı olsa da, onların əksəriyyətini müasirlərimiz, xüsusilə gənc nəslin nümayəndələri yaxşı tanımır.

Ramin Məmmədovun xidməti təkcə bununla bitmir. Rusiyada yaşayan azərbaycanlılarla yanaşı canından artıq sevdiyi doğma yurdu Qəbələnin sadə peşə adamlarına, elm, ədəbiyyat, mədəniyyət xadimlərinə həsr etdiyi kitabları və yazıları el-el, oba-oba, ürək-ürək gəzir, hər bir adam üçün bələdçiyə çevrilir.

R. Məmmədov Rusiyada erməni təbliğatının güclü olduğuna elə o vaxtdan bələd idi. Ona görə də Azərbaycan-Qarabağ həqiqətlərini əks etdirən yazılara böyük ehtiyac olduğunu bilirdi. Bu mövzuda yazılan - Yuri Pompeyevin «Krovavıy omut Karabaxa» (Bakı, 1992), Tatyana Çaladzenin «Sostradanie» (Bakı, 1995), Abbasqulu Ağa Bakıxanovun «Qölistani-İram» (Bakı, 1991), «Opisanie pereselenie armən azerbaydjanskix v predelı Rossii» (Moskva,1831), «Oçerki zakavkazskoy jizni» (Sankt-Peterburq,1902) kimi əsərlərin iki mindən artıq nüsxələrini və yüzlərlə qəzet materiallarını Rusiya şəhərlərinin redaksiyalarına, kitabxanalarına və görkəmli rus ziyalılarına çatdıraraq erməni xislətinin iç üzünün açılması üçün geniş təbliğat işi aparmışdır. 1987-1990-cı illərdə ermənipərəst Qorbaçov siyasi xətti xalqımızın böyük oğlu Heydər Əliyevə qarşı çirkin təbliğat aparmaqla məşğul idi. SSRİ-nin ən nüfuzlu mətbu orqanlarında Heydər Əliyevə qarşı qərəzli hücum kampaniyası başlanmışdı. Həmin vaxt Rusiyanın Tümen vilayətinin Nijnevartovsk dəmiryol vağzalı nəqliyyat milisində SƏDM müvəkkili işləyən milis leytenantı R.Məmmədov Vətən, torpaq təəssübkeşliyi ilə, hətta daşıdığı vəzifəni belə düşünmədən xalqımızın böyük oğlu Heydər Əliyev haqqında mətbuatda gedən çirkin kampaniyaya etiraz səsini ucaltmış, hələ «kəskin qılınclı» Kommunist Partiyasının mərkəzi orqanı olan «Pravda» qəzetinə məktubunda yazmışdı: «Heydər Əliyev nəhəng və çoxşaxəli şəxsiyyətdir, onun ölkə qarşısında xidmətləri böyükdür. Ona iki dəfə Sosialist Əməyi Qəhrəmanı, çoxlu-çoxlu orden və medallar xüsusi xidmətlərinə görə verilib… Bu barədə «Pravda»nın səhifələrində söhbət açsanız, qəzetinizə hörmət artar…»

Bu gün Ramin Məmmədov yaradıcılığını davam etdirir, Rusiyadakı azərbaycanlılara, Azərbaycan-Rusiya münasibətlərinə dair yeni kitablar üzərində işləyir. Bu qədər arxiv materiallarını araşdırmaq, çoxlu insanlarla görüşmək bir alim-tədqiqatçı fədakarlığına bərabər işdir. Ramin müəllim bu fədakarlıqla dolu yolun yolçusudur.

Qeyd edək ki, R. Məmmədov eləcə də müxtəlif elmi almanaxlarda, digər nəşrlərdə rus və Azərbaycan dillərində dərc olunmuş "Rusiyada Azərbaycan mühacirət ədəbiyyatı", "Mirzə Kazım bəy: elmi və pedaqoji fəaliyyətinin Kazan dövrü", "Moskva ensiklopedik nəşrlərində erməni saxtakarlığı", "Rusiyada Azərbaycan mətbuatı", "Qarabağ problemi Rusiya nəşrlərində", "Ksenofobiya-mənbələr, yayıcılar, ilhamvericilər" və b. elmi və elmi-publisistik məqalələrin müəllifidir. Hazırda onun "Rusiyada Azərbaycan mühacirət (diaspor) mətbuatı" adlı monoqrafiyası çapa hazırlanır.

Yaşadığımız ilin bu ayında Ramin məmmədovun 60 yaşı tamam olacaq. Daxili işlər orqanları və müharibə veteranı olan eloğlumuza yeni yaradıcılıq uğurları, ictimai fəallıq, cansağlığı arzulayırıq.

**✍ Solmaz Məhərrəmova,**
**tarix elmləri doktoru, professor,**
**Əməkdar mədəniyyət işçisi.**

# Su çiçəyi xəstəliyi

***Su çiçəyi çox tez-tez rast gəlinən, ağır əlamətlərə yol açmayan, virus mənşəli yoluxucu xəstəlikdir. Bu xəstəliyi törədən virus varicella-zoster virusudur. Bu virus suçiçəyi və zona xəstəliklərini yaradar.***

**Əlamətləri**

İnkubasiya (gizli) dövrü təxminən 14 gündür. Bədəndə tipik səpki əmələ gəlməmişdən bir gün əvvəl yüngül hərarət, halsızlıq, kimi başlanğıc əlamətləri ola bilər. Amma xəstəliyin əsl əlamətləri dəridə əmələ gələn səpkilərdir. Sərkilər əvvəlcə çəhrayı dəridən qabarıq şəkildə başlayır. Bir neçə saatda qırmızı içi maye dolu şəkil alır. Həmin maddələr asanlıqla partlaya bilir. İçindəki şəffaf maye 12-24 saat ərzində toplanır və üstü qabıq bağlayaraq qəhvəyi pulcuqlar halında tökülür. Özü də bu hadisələr belə inkişaf edərsə heç bir iz buraxmır. Ancaq içi maye dolu kisəciklər süni şəkildə partladılsa iz qala bilər. İlk çıxan papulalar 3-4 gündə itərkən yeniləri çıxmağa başlayır. Beləcə, bir neçə fərqli şəkildəki səpkilər eyni anda görülür. Üzdə, saçlı dəridə, əllərdə və ayaqlarda daha az görülür. Həmin səpkilərdə qaşınma da olur. Səpkilər qaşınırsa buralarda həm iz qala, həm də yeni bakteriyalar yarana bilər. Suçiçəyi yaşlılarda uşaqlara görə daha ağır keçir. Xəstəlik hamiləliyin ilk 3 ayında keçirilərsə, vaxtından qabaq doğulmuş uşaq, ölü doğuş və doğuşdan gələn anomaliyalar ola bilər.

**Diaqnozu**

Suçiçeyinin diaqnozu səpkilərin diqqətli araşdırılması ilə qoyula bilər. Bundan başqa, yaxın zamanda suçiçəyi keçirən insanla təmas varsa diaqnoz həmin vaxt qoyula bilər. Şübhəli olan hallarda isə səpkilərdən alınan laboratoriya testləri edilə bilər.

**Müalicəsi**

İmmunitet sistemi normal olan xəstələrdə müalicə yalnız qaşıntının və bakteriya infeksiyasının qarşısının alınması üçün tətbiq olunur. Bununla yanaşı uşaqların dırnaqları kəsilməlidir. Bakteriya infeksiyasının inkişaf etməsinin qarşısını almaq üçün sabunla gündəlik təmizlik aparılmalıdır. Temperaturu yüksək olan uşaqlara qızdırma əleyhinə dərman vermək olar. Bu uşaqlara heç bir şəkildə aspirin verilməməlidir. Çünki viruslu infeksiya keçirən uşaqlara aspirin verilsə Rey sindromunun ortaya çıxma ehtimalı çox yüksəkdir. Rey sindromu qaraciyər yağlanması ilə bağlı olaraq inkişaf edən ciddi funksiya itkisidir. Bu itki nəticəsində şüur dəyişiklikləri ilə özünü göstərən komaya qədər gedən ölümcül bir vəziyyət ortaya çıxa bilər. Yeniyetmələrdə və immunitet sistemi zəif olan suçiçəyi xəstələrində antiviral müalicə tətbiq olunur.

**Yoluxma yolları**

Suçiçəyi xəstəliyi çox yoluxucu bir xəstəlikdir. Yoluxma müddəti səpkilər çıxmadan 1-2 gün əvvəl başlayır. Bütün səpkilər qabıqlanmasına qədər davam edir. Həmin səpkilərlə birbaşa təmasla yoluxur. Bundan başqa, damcı yolu deyilən hava yolu ilə də yoluxur. Suçiçəyi xəstəliyi qışın sonu, yazın əvvəli dövründə tez-tez rast gəlinir.

**Qorunma yolları**

Suçiçəyi keçirən xəstələrlə təmas edilməməlidir. Suçiçəyi keçirən uşaqlar səpkilərdəki qabıqlar düşənə qədər məktəbə göndərilməməli, digər uşaqlarla təmasda olmamalıdır. Qarantin tədbirləri görülməli, xəstələr ilə təmas olunmamalı, filtir süzgəcdən istifadə olunmalıdır.

**✍ Sədiyar Hüseynov,**
**GEM-nin şöbə müdiri.**

# Pasxa bayramı keçirildi

***16 aprel 2017-ci ildə Nic qəsəbəsindəki, «Çotari» Alban-Udi Xristian kilsəsində xristianların müqəddəs bayramlarından olan Pasxa byramı keçinilib. Qeyd edək ki, Alban-Udi xristian kilsəsi 2006-cı ildə bərpa olunub. Artıq 10 ldir ki, fəaliyyət göstərir. Kilsə dini icması dövlət qeydiyyatından keçib.***



Sübh tezdən Nic qəsəbəsinin sakinləri, ölkəmizin paytaxtı Bakı şəhərindən və digər şəhərlərdən, ABŞ, Rusiya, Almaniya, İsrail Norveç, Baltikyanı respublikalarından olan qonaqlar pasxa bayramında iştirak üçün kilsənin həyatinə toplaşmışdılar. Bayram tədbirinə yığışanlar arasında İslam dininə və digər dinlərə mənsub insanların da toplaşması Azərbaycan tolerantlığının bariz nümunəsi sayıla bilər.

Alban udi xristian Dini İcmasının sədri Robert Mobili, kilsənin dini rəhbəri Rafiq Danakari və başqaları çıxış edərək Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Pasxa bayramı münasibətilə təbrikini məmunluq hissi ilə qarşıladıqlarını bildiriblər.

Sonra kilsədə şamlar yandırıldı, dualar oxundu. 41 imkansız ailəyə yardım göstərildi. 150 nəfər 12 yaşa qədər olan uşağa bayram hədiyyəsi verildi. Udi milli bişintiləri, rəngbrəng yumurtalar bayram süfrələrini bəzəyirdi. Azərbaycan Respublikası Prezidenti Yanında «Bilik» fondu tərəfindən Alban-Udi kilsəsinə 100-ə qədər kitab bağışlandı. «Bilik» fondunun Azərbyacan dilini öyrənirik layihəsi çərçivəsində Azərbaycan dili kursuna cəlb edilmiş udi millətinldən olan 30 nəfərə kursu müvəffəqiyyətlə bitirdiklərinə görə sertifikat təqdim olundu. Sertifikatları Qəbələ Rayon İcra Hakimiyyətinin məsul işçisi Absalam Hüseynov, Alban Udi Xristian Dini İcmasının sədri Robert Mobili, Qəbələ RİH-in Nic qəsəbə inzibati ərazisi üzrə nümayəndəsi İbrahim Məmmədov təqdim etdilər. Mərasimdə çıxış edən Bilik Fondunun sektor müdiri Hacı Abdulla udiləri Azərbaycan Respublikasının millətlərarası, multkulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayevin adından təbrik etdi.

Pasxa bayramı aprelin 27-dək davam edəcək.

***«Qəbələ».***